Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 63 (1191) 5 aprel - 6 aprel 2016-cı il

# ŞAMAXI: HARDAN BAŞLANIR VƏTƏN?

(əvvəli ötən saylarımızda)

**Şamaxı şəhərinin qaz təchizatının yaxşılaşdırılması məqsədilə şəhərin 02A, 01B və 10A saylı yaşayış massivlərinin layihə-smeta sənədləri hazırlanmış və yaxın zamanda həmin massivlərə təbii qaz xətlərinin çəkilişi nəzərdə tutulmuşdur.**

Ötən müddət ərzində şəhərin su təchizatının yaxşılaşdırılması və kanalizasiya sisteminin yenidən qurulması işlərinin daha da sürətləndirilməsi, bu sahədə olan problemlərin aradan qaldırılması məqsədilə həyata keçirilən operativ tədbirlər öz bəhrəsini verməkdədir. Belə ki, Göyzəmi su mənbəyindən 219 diametrli boru ilə 2800 metr məsafədən yeni su xətti çəkilmişdir. Ağabəyli və Nanəli su xətlərində cari təmir işləri aparılmışdır. Şəhərdaxili şəbəkə xətlərində 15485 p/m uzunluqda müxtəlif diametrli su xətlərində təmir işləri aparılmışdır. Daxili kanalizasiya xətlərində 140 ədəd baxış quyusu təmizlənmiş, 4073 p/m müxtəlif diametrli kanalizasiya xətlərində təmir işləri görülmüşdür. Ötən dövr ərzində yeni tikilmiş mərkəzi nasosxana istifadəyə verilmişdir. 2015-ci il ərzində şəhərin küçələrinə 3,2 km kanalizasiya 6,7 km isə su xətləri çəkilmişdir. İndiyədək ümumilikdə şəhərin müxtəlif küçələrinə 114,1 kilometr kanalizasiya və 126,8 kilometr su xətti çəkilmişdir. Bundan əlavə iki ədəd su anbarının tikintisi başa çatmaq üzrədir. Rayonun Nağaraxana kəndində artezian quyusu qazılaraq istifadəyə verilmiş Mədrəsə qəsəbəsində isə artezian quyusunun qazıntısı davam etdirilir.

> **“Mən Azərbaycanın hər bir vətəndaşının prezidentiyəm. Bizim məqsəd və məramımız da hər bir vətəndaşımızın daha yaxşı yaşaması və daha yaxşı təmin olunmasıdır”.**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

### *Təhsil, səhiyyə, mədəniyyət və turizm yenilikləri*

2015-ci ildə təhsil, səhiyyə, mədəniyyət, turizm və idman sahələrində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi, mövcud çatışmazlıqların aradan qaldırılması sahəsində xeyli işlər görülmüşdür.

2015-ci ildə təhsilin maddi-texniki bazası möhkəmləndirilmiş, onun infrastrukturu yenilənmişdir. Belə ki, şəhər 2, 3 saylı tam orta, 8 saylı ibtidai, Məlhəm, Məlikçobanlı kənd tam orta, Sabirli kənd ümumi orta məktəblərində və Uşaq Gənclər Yaradıcılıq məktəbində cari təmir işləri aparılmışdır. Hesabat ilində 380 şagird yerlik Mədrəsə qəsəbə tam orta və 80 şagird yerlik Şərədil kənd ümumi orta məktəblərinin tikintisi sona çatdırılmışdır. Talışnuru və Hacıqədirli kənd tam orta məktəblərinin tikintisi üçün layihə sənədləri hazırlanmış, Göylər 1 saylı kənd tam orta məktəbin tikintisi Dövlət Proqramına daxil edilmişdir. Şəhərin S.Ə.Şirvani küçəsində 100 yerlik 5 saylı uşaq bağçasının tikintisi ilə əlaqədar layihə sənədləri hazırlanır, Şəhriyar qəsəbəsinin ərazisində isə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 100 yerlik 4 saylı uşaq bağçasının son tamamlanma işləri aparılır. Bundan əlavə 2015-ci ildə şəhərin Şirvan küçəsində 1 saylı körpələr evi-uşaq bağçası üçün yeni bina tikiləcək istifadəyə verilmişdir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 yanvar 2015-ci il tarixli Sərəncamına əsasən dövlət ümumtəhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əmək haqqının artırılması regionlarda, eləcə də Şamaxı təhsil işçilərində böyük ruh yüksəkliyi yaratmışdır. Gözlənilən diaqnostik qiymətləndirmə müəllimlərin öz üzərlərində çalışmaları üçün güclü stimula çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatının təsis edilməsi haqqında Sərəncamı ilə əlaqədar rayonun 3 nəfər müəllimi Respublika müsabiqəsində iştirak etmiş və onlardan 2 nəfəri şəhər 2 saylı tam orta məktəbin müəllimi Mehriban Eyyubova və şəhər 1 saylı tam orta məktəbin müəllimi İlahə Əmirova "Ən yaxşı müəllim" müsabiqəsinin qalibləri olmuşlar. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə həmin müəllimlər beş min manat məbləğində birdəfəlik pul mükafatı ilə mükafatlandırılmışlar. Həmçinin 5 Oktyabr Beynəlxalq Müəllimlər günü münasibətilə ölkə rəhbərinin sərəncamına əsasən M.Hadi adına şəhər 9 saylı tam orta




məktəbin müəllimi Mətanət Daşdəmirova "Tərəqqi" medalı ilə, Şəhriyar qəsəbə tam orta məktəbin direktoru Rəsul Rzai "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

Hesabat ilində ali məktəblərə qəbul olunan məzunların sayı 215 nəfər olmuşdur. Onlardan 9 nəfəri 600-dən, 45 nəfəri isə 500-dən çox bal toplayaraq ali məktəblərə qəbul olmuşlar.

Rayonda mövcud olan körpələr evi-uşaq bağçaları daim diqqət mərkəzində saxlanılmış və vaxtaşırı monitorinqlər keçirilmişdir. Aparılan araşdırma zamanı körpələr evi-uşaq bağçalarının ərzaq təminatının yaxşılaşdırıldığı və bağçaların hər bir yaş kateqoriyası üçün standartın tələblərinə müvafiq qaydada təsdiq olunmuş menyu nümunəsinə uyğun yeməklərin verilməsi müəyyən edilmişdir.

Son illər dövlət başçısının tapşırığına əsasən respublikanın hər yerində olduğu kimi Şamaxıda da səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi əhaliyə göstərilən tibbi xidmətin yaxşılaşdırılmasında əsaslı rol oynamışdır.

Hesabat ili ərzində rayon əhalisinə göstərilən səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində bir sıra tədirlər həyata keçirilmişdir. Mərkəzi Rayon Xəstəxanasının həkimlərindən ibarət səyyar həkim briqadaları yaradılaraq il ərzində həftədə bir dəfə olmaqla rayonun qəsəbə və kəndlərində əhaliyə tibbi xidmətlər göstərilmiş və Diaqnostika Mərkəzində 1000-ə yaxın uğurlu əməliyyatlar aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən 2015-ci ilin fevral-may ayları ərzində rayon əhalisinin kütləvi dispanser müayinəsi həyata keçirilmiş, müayinəyə 73915 nəfər əhali cəlb edilmişdir. Aşkara çıxarılan xəstələr təyinatı üzrə ambulator və stasionar müalicəyə cəlb olunmuşlar. Onların dispanser müalicəsi təşkil olunmuş, ehtiyacı olan xəstələr isə Bakı şəhərinin müxtəlif profilli xəstəxanalarına göndərilmişdir. 2016-ci ildə də əhalinin tibbi müayinədən keçirilməsi uğurla davam etdirilir. Bundan əlavə "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq 19550 nəfər uşaq dispanser müayinəsinə cəlb olunmuşdur. 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Mərkəzi Rayon Xəstəxanada və Diaqnostika Mərkəzində təşkil olunan qanvermə aksiyasında 645 nəfərdən çox insan iştirak etmiş və 270 nəfərdən qan götürülmüşdür.

Rayonun mədəniyyət sahəsində də xeyli işlər görülmüşdür. Qeyri-maddi mədəni irsimizin təbliği və təşviqi məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilən 2010/2014-cü illər üçün "Xalq Yaradıcılığı Paytaxtları" Proqramının bölgələrə verdiyi müsbət tövhələrini nəzərə alaraq görülən işlərin yeni formada davam etdirilməsi qərara alınmışdır. Proqramla əlaqədar 2015-ci il üçün Şamaxı şəhəri "Azərbaycanın Ədəbiyyat Paytaxtı" elan edilmişdir.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ